**Təranə Nuriyeva**
**Korrupsiya – ölkəni uçuruma aparan cinayətkarlıq**
**«Yeni Zaman» qəzeti № 61, 19-21 iyul 2003**

**Ona qarşı ciddi mübarize aparmaq zamanın telebidir**

*Korrupsiya terror, narkomafiya kimi son derece tehlükeli bir beladır. Hazırda beşeriyyet buna qarşı mübarizeni getdikce güclendirir. Müteşekkil cinayetkarlığın qorxulu formalarından sayılan korrupsiya esasen iqtisadiyyatın aparıcı, esas sahelerine nüfuz edir, idareetme strukturlarında mövqeyini möhkemlendirir. Bir çox hallarda ise bu o hedde çatır ki, elde edilen "çirkli pul"lar hesabına "gizli iqtisadiyyat" özünemexsus şekilde formalaşır, daire emele getirir, cinayetkarlıq yolu ile vetendaşların hüquq ve azadlıqlarını mehdudlaşdırır.*

**Qanunverici bazanı herekete getiren işlek mexanizm yoxdur**

Azerbaycan müsteqilliye qedem qoyduqdan sonra demokratik, hüquqi ve dünyevi dövlet quruculuğuna, bazar iqtisadiyyatı prinsiplerine esaslanan teserrüfat strukturlarının, azad sahibkarlığın formalaşdırılmasına başlanıldı. İqtisadi ve sosial sahede aparılan islahatlar respublikamızın dünya sistemine inteqrasiyasını süretlendirdi. Lakin etiraf edek ki, bu zaman qarşıya çıxan bir sıra çetinlikler, meselen, idareetme strukturlarında bürokratiya, süründürmeçilik, korrupsiya heyata keçirilen tedbirlerin semeresini azaldır, xalqın yaşayış şeraitine menfi tesir gösterir, ekser hallarda ise vetendaşlarda hakimiyyet dairelerine qarşı menfi ehvali-ruhiyye yaradırdı. Düzdür, cinayetkarlığa, korrupsiyaya tesir gösteren halları aradan qaldırmaq üçün xeyli sayda müvafiq qerarlar da verilirdi ve bu qerarların icrası meqsedile teşkilati tedbirler reallaşdırılırdı. Amma teessüf ki, indiyedek bunun ele bir müsbet neticesi müşahide edilmeyib. Meselen, "Cinayetkarlığa qarşı mübarizenin güclendirilmesi, qanunvericiliyin ve hüquq qaydalarının möhkemlendirilmesi tedbirleri haqqında" dövlet başçısının 9 avqust 1994-cü il tarixli fermanında hüquq-mühafize orqanlarından idare, teşkilat ve müessiselerde rüşvetxorluq faktlarının aşkar edilmesi, bele hallara yol vermiş vezifeli şexslerin qanuna müvafiq suretde cezalandırılması, rüşvetxorluğa qarşı mübarize tedbirlerinin güclendirilmesi qeti suretde teleb edilmişdir. Bundan sonra H.Eliyev 1996-cı il tarixli "İstehsal, xidmet, maliyye-kredit fealiyyetine dövlet nezaretinin qaydaya salınması ve esassız yoxlamaların qadağan edilmesi barede" ferman imzalamışdır. Bu senedde de dövlet ve özel bölme subyektlerinin esassız yoxlanılmasının qarşısının alınması mühüm bir vezife kimi qarşıya qoyulub. Lakin etiraf edek ki, adıçekilen fermanla da korrupsiya ve rüşvetxorluğun qarşısını arzu edilen şekilde kesmek mümkün olmayıb... Dövlet başçısının "Azerbaycan Respublikasında iqtisadi cinayetkarlığa qarşı mübarize sahesinde bezi tedbirler haqqında" 1998-ci il 27 yanvar tarixli serencamı, "Dövlet

nezaret sisteminin tekmilleşdirilmesi ve sahibkarlığın inkişafı sahesinde süni maneelerin aradan qaldırılması haqqında 1999-cu il 7 yanvar tarixli fermanı da korrupsiyaya, rüşvetxorluğa qarşı daha meqsedyönlü mübarize aparılmasına şerait yaratmışdı. Etiraf edek ki, bu mühüm senedlerden sonra iş adamlarının, sahibkarlıq fealiyyeti ile meşğul olan şexslerin iqtisadi fealiyyetine esassız müdaxile halları xeyli xeyli derecede mehdudlaşdırılsa da, sahibkarlıq fealiyyetinin genişlendirilmesi üçün elverişli mühit yaradılsa da, ölkede korrupsiyanın, rüşvetxorluğun kökünü kesmek mümkün olmayıb.

H.Eliyevin korrupsiyaya qarşı mübarize ile bağlı fermanı 2000-ci il iyunun 8-de qüvveye minib. Hemin fermana esasen, korrupsiya eleyhine qanunvericilik senedi ve Dövlet Proqramı 6 ay erzinde hazırlanmalı idi. Hetta bundan 3 ay sonra, 2000-ci ilin sentyabrın evvellerinde Prezidentin İcra Aparatının rehberi Ramiz Mehdiyev bildirirdi ki, "işlerin gedişi güman etmeye esas verir ki, Prezidentin fermanı vaxtında icra edilecek". 2001-ci ilin aprelinde ise Ramiz Mehdiyev xeber verirdi ki, "korrupsiyaya qarşı mübarize haqqında qanun ve proqram layihesi praktik olaraq hazırdır".

Göründüyü kimi, sözügeden senedin hazırlanmasını teleb eden Prezident fermanının imzalanmasından 3 ilden çox bir vaxt ötür. Amma verilen vedler, deyilen sözler hele de reallaşmayıb.

**Hesablama Palatasının işi niye görünmür?!**

Korrupsiyaya qarşı mübarizeden danışarken bir mühüm meseleni de xatırlayaq. Hesablama Palatası yaradılarken nezerde tutulmuşdu ki, bu palata bundan sonra tekce büdceni deyil, hem de büdcedenkenar fondların formalaşmasını, xerclerin ve vesaitlerin istifadesine nezareti reallaşdıracaq. Palata maliyye nezareti orqanı olduğu üçün ona bütün maliyye sahelerine nezaret etmek hüququ verilmişdir. En yüksek nezaretedici funksiyaları birleşdiren palata eyni zamanda hüquqi şexslere büdceden vesait ayrıldıqdan sonra teyinatı üzre istifadesine nezareti heyata keçirmelidir. Palatanın funksiyalarının bu qeder genişlendirilmesi, başqa sözle, büdcenin icrasından tutmuş dövlet qurumlarının xerclerinin ve hetta seçkilerin maliyyeleşdirilmesine qeder bütün prosesleri nezaretde saxlaması onun ölke daxilinde korrupsiyanın önünde kifayet qeder sedd çekmesine şerait yaradır. Amma qeyd edek ki, palata fealiyyete başlayandan indiyedek sözügeden istiqametde ele bir ciddi iş görmeyib. Belke de görüb, amma metbuatda, geniş ictimaiyyetde bu barede müeyyen bir informasiya, melumat yoxdur...

**Korrupsiyanın mövcudluğu resmi şekilde tesdiqlenir**

Azerbaycanda korrupsiyanın geniş yayılması fikri resmi şexsler terefinden defelerle bildirilib. Bununla bağlı son illerde metbuatda öz ifadesini tapan bezi mülahizelere diqqet yetirek.

...2001-ci il fevralın 1-de keçirdiyi müşavirede Heyder Eliyev paytaxtın problemlerinden danışaraq bildirirdi ki, rehber işçiler temenna, rüşvet ve korrupsiya hallarına yol verir.

...2000-ci il noyabrın 11-de keçirilen seminarda Beynelxalq Valyuta Fondunun Azerbaycan üzre nümayendesi Maykl Mered yoxsulluğa qarşı mübarize proqramında nezerde tutulan tedbirler arasında korrupsiyanın azaldılmasını ilk sırada qeyd edirdi.

...2001-ci il iyunun 12-de Dövlet Gömrük Komitesinin sabiq sedr müavini Selim Müslümov etiraf edirdi ki, "ölkenin gömrük orqanlarında korrupsiyanın seviyyesi hele de yüksekdir..."

...2001-ci ilin martında Azerbaycanın Böyük Britaniyada o zamankı sefiri, xarici işler nazirinin müavini Mahmud Memmedquliyev ölkede investisiya süstlüyünün sebebleri kimi bürokratik engelleri ve korrupsiya hallarını vurğulayırdı...

...2002-ci il aprelin 3-de ölke prezidenti Heyder Eliyev Sumqayıtda keçirdiyi müşavirede demişdir: "...Fikret Sadıqovun teşkilatı (Azerkimya Dövlet Şirketi nezerde tutulur-T.S.) dövletden subsidiya alır, benzin alır, ne bilim ne alır, amma dövlete ne verir? Heç bir şey".

Dövlet başçısı adıçekilen şirketde dolayısı ile olsa da, korrupsiya faktını tesdiqlemişdir...

...Bu ilin may ayında Xezer Deniz Gemiçiliyi İdaresinin reisi Aydın Beşirov keçirdiyi metbuat konfransında korrupsiya ile bağlı son derece ciddi faktlar açıqlayıb. O bildirib ki, 1999-cu ilin dekabrında Avropa Yenidenqurma ve İnkişaf Bankı Bakı Beynelxalq Ticaret Limanına 16 milyon dollarlıq kredit xetti açıb. Bu kredit konkret olaraq reallaşdırılmasa da, kağız üzerinde "istifade" edilib. Hetta işledilmeyen bu kredite göre tekce bu ilin sonunadek 1 milyon 250 min dollar faiz ödenilmelidir. A.Beşirovun Bakı limanı ile bağlı korrupsiya faktı yalnız bundan ibaret deyil. Gemiçiliyin reisi hemin metbuat konfransında limanın aldığı 6 milyon dollar qrantın da semeresiz istifadesine toxunmuşdur. Göstermişdir ki, bu mebleğde qrant vesaiti hesabına lazım olmadığı halda konteyner termimnalı tikilib. Halbuki ne Azerbaycanda, ne de diger Xezeryanı ölkelerde bele terminala ehtiyac yoxdur. Çünki Xezerde konteyner daşıyan gemi işlemir. Bunun neticesidir ki, 6 milyon dollara başa gelen ve istifadesiz qalan konteyner daşıyacaq texnika dağılıb, yaxud dağıdılıb. Elbette, bu faktlar Azerbaycanda korrupsiyanın nece geniş miqyas almasını, külli miqdarda kredit ve qrantın eyri yollarla, lüzumsuz istiqametde xerclenmesini açıq-aydın gösterir.

**Korrupsiyalaşdırılmış özelleşdirme**

Ölkede rüşvetxorluğun geniş yayıldığı saheler arasında özelleşdirme prosesinin nüfuz etdiyi qurumlar daha çox diqqet çekir. Bu barede bir qeder etraflı danışmaq yerine düşerdi. Qeyri-hökumet teşkilatları, o cümleden Azerbaycan

Sahibkarlar Konfederasiyası (ASK) bir neçe il bundan evvel bu en mühüm islahata ictimai ve dövlet nezaretinin teşkilini reallaşdırmaqla korrupsiyanın, rüşvetxorluğun aradan qaldırılması mümkünlüyünü bildirdi. ASK-nın prezidenti Elekber Memmedov bu barede metbuata verdiyi açıqlamada gösterirdi: "Özelleşdirmeye dair ikinci Dövlet Proqramının qebulundan az sonra özelleşmeye dövlet nezaretini temin etmek üçün xüsusi komissiya yaradıldı. Lakin teessüfler olsun ki, bu müddet erzinde defelerle mesele qaldırsaq da, ictimai qurumların komissiyanın işine celbi istiqametinde heç bir iş görülmeyib". E.Memmedovun qenaetine göre, buna sebeb Azerbaycanda korrupsiya meyllerinden qaçmaq üçün semereli ictimai nezaretin teşkilinin ehemiyyetini derk edenlerin az olmasıdır.

Ümumiyyetle, korrupsiya en çox özelleşdirmenin gedişi zamanı müşahide edilmişbir. Bu iqtisadi islahat neticesinde bezi investorların, elece de emek kollektivlerinin, sonrakı vaxtlarda ise sehmdarların hüquqları kütlevi şekilde pozulmuşdur. Çek herraclarında şeffaflıq temin edilmemişdir. Bir çox müessisede qapalı abune yazılışı aparılmamışdır. Yüzlerle sehmdar cemiyyetinde emek kollektivlerinin çeklerle serbest investisiya qoymaq hüquqları pozulmuşdur. Azerbaycanda bir sıra iri senaye müessiseleri "potensial investorlar evezine alverçilere verildiyinden" (Prezidentin iqtisadi meseleler üzre müşaviri Vahid Axundov) indiyedek fealiyyetsiz qalmışdır. Kiçik müessiselerin böyük hissesinin reqabetsiz herraclarda emek kollektivi adı ile müdirlere (reislere) satılması da son neticede menfi göstericilerle müşahide edilmişdir. Kiçik müessiselerin heqiqi deyerinin herraclarda müeyyenleşdirilmesine imkan verilmemişdir. Özelleşdirmenin teşkili meselesi de müeyyen menafeler nezere alınmaqla, başqa sözle, şexsi mülahizeler esasında reallaşdırılmışdır. Bele ki, heç bir real, obyektiv esas olmadan depozitar sistem keçmiş Dövlet Emlak Komitesinin tabeliyinde inhisarçı mövqede fealiyyet göstermişdir. Bundan başqa, Çek Auksionları Merkezinin adıçekilen komitenin tabeliyinde olması da korrupsiyanın, nece deyerler, el-qol açmasına şerait yaratmışdır. Xatırladaq ki, özelleşdirmenin indiki merhelesinde de korrupsiyaya elverişli şerait yaradan amiller aradan qaldırılmamışdır.

Yeri gelmişken, bir cehete de toxunmağı zeruri sayırıq. Ölkede korrupsiya menbeyi sayılan saheler çoxdur. Biz bir az bundan evvel özelleşdirmede nezere çarpan korrupsiya hallarının müeyyen qismine toxunduq. Kredit ve qrantın menimsenilmesi, yaxud dağıdılması faktını gösterdik. Bundan başqa, hem enerji kompleksinde, hem de diger sahelerde gizli subsidiyalar hesabına ne qeder dövlet vesaitinin menimsenildiyi, dağıdıldığı heç kime sirr deyil. Mütexessislerin qenaetine göre, bu subsidiyalar mütleq leğv olunmalıdır...

**Son illerin digger korrupsiya faktları**

...Senaye-İnvestisiya Bankının Sebayel rayon şöbesinden 24 milyon dollar vesait oğurlanmışdır.

..."Azeribalıq" Dövlet Konserninden 40 milyon dollara yaxın vesait menimsenilmişdir.

...ABŞ sefirliyi erazisindeki keçmiş sakinlere ayrılan pul tezminatlarının böyük bir hissesi (her menzil üzre texminen 50 min dollar) "yoxa çıxmışdır"?!.

...Texminen 40 milyon dollar vesait "Qaçqınkom"da "itirmişdir" (?!.)

...250 milyard manatlıq büdce vesaiti teyinatdan kenar menimsenilmişdir. Acınacaqlı da olsa faktların sayını kifayet qeder artırmaq mümkündür. Bu ise ölkede korrupsiyanın derin kök salmasından, idareetme strukturlarında rüşvetxorluğun geniş yayılmasından xeber verir. Milli tehlükesizliyimizi tehdid eden bu beladan qurtulmaq mümkündürmü?

Bes qeyri-münbit investisiya mühitini, korrupsiyanı, gizli iqtisadiyyatda dövr eden qanunsuz gelirler problemini nece aradan qaldırmaq olar? Azerbaycan iqtisadiyyatının inkişafını engelleyen bu çetinlikleri leğv etmek üçün ekspertlerin fikrince, ilk növbede hüquqi-normativ tenzimlenme bazasındakı ciddi boşluqlar "doldurulmalı", gelirlerin deklorasiyası sistemi yaradılmalı, antikorrupsiya qanunvericiliyi hazırlanmalıdır.

Ümumiyyetle, korrupsiyanın qarşısının alınmaması ölkede sosial şeraiti getdikde ağırlaşdırır, iqtisadiyyatın inkişafını engelleyir. Ona göre de kapitalın elde edilmesinde şeffaflıq temin olunmasa, çirkli pulların ve qanunsuz gelirlerin aşkarlanmasına çalışılmasa, leqal kapital rejimleri yaradılmasa, ehalinin hakimiyyete qarşı narazılıq dalğası tedricen güclenecek.